# Samuxda şəhid Füzuli Məmmədovun xatirəsi ehtiramla yad edilib

**Şəhidlik uca zirvədir. Elə zirvə ki, Vətən uğrunda canını qurban verib bu zirvəyə yüksələn oğullarımız indi bizim aramızda olmasalar da, xalqın qəlbində əbədi yaşayırlar.**



44 günlük Vətən müharibəsində igidlik göstərərək qəhrəmancasına şəhid olanlardan biri də Samux rayonu Qovlarsarı kəndində doğulub boya-başa çatmış, Azərbaycan Ordusunun Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinə qarşı apardığı lokal xarakterli antiterror tədbirlərində  şəhid olan leytenant Məmmədov Füzuli Bəhruz oğludur. Digər şəhidlərimiz kimi, Füzulinin də xatirəsinə rayonda ehtiram göstərilir. Elə bu günlər şəhidin doğum günü ilə əlaqədar keçirilən anım mərasimində onun əməllərindən söhbət açılmış, düşmənə qarşı döyüşlərdə göstərdiyi igidliklərdən danışılmışdır. Anım mərasimində çıxış edənlər  şəhid Füzuli Məmmədov haqqında ürək sözlərini söyləmişlər. Şəhidin təhsil aldığı məktəbin şagirdləri vətənpərvərlikdən bəhs edən şeirlər oxuduqdan sonra söz rayon ağsaqqallarına verilmişdir. Onlar öz çıxışlarında  belə tədbirlərin  şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi, keçdikləri şərəfli döyüş yolunun təbliğində  əhəmiyyətli rol oynadığını vurğulamışlar.

Tədbirdə diqqətə çatdırılmışdır ki, iki qız övladını əmanət qoymuş Füzuli Məmmədov Prezidentin sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Anım mərasiminin iştirakçıları şəhidin məzarını ziyarət edərək üstünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.8.